**Leyla Əliyeva**
*Azərbaycan Dillər Universiteti*
**10.30546/2518-752X.1.601.079**

# MEMUAR JANRININ BƏDİİ PRİNSİPLƏRİ VƏ İSRAİL ƏDƏBİYYATINDA TƏZAHÜRÜ

***Açar sözlər:*** *xatirə, avtobioqrafiya, İsrail ədəbiyyatı, subyektiv yaddaş, şəxsi hekayə*
***Keywords:*** *memoir, autobiography, Israeli literature, subjective memory, personal narrative*
***Ключевые слова:*** *мемуары, автобиография, израильская литература, субъективная память, личный рассказ*

**Giriş.** Memuar janrı ədəbiyyatda müəllifin şəxsi təcrübələrini, müşahidələrini və yaşadığı dövrün mühüm hadisələrini xatirə şəklində qələmə alması ilə xarakterizə olunur. Bu janrın əsas cəhəti hadisələrin müəllifin fərdi baxış bucağından təqdim edilməsidir. Ədəbiyyatşünas M.H.Abrams memuarı "müəyyən dövrün və hadisələrin müəllifin subyektiv baxış bucağından təsviri" [1, s. 22] kimi səciyyələndirir. Bu yanaşma memuar janrının ikili təbiətini ortaya qoyur. Bir tərəfdən o, sənədli xarakter daşıyır, çünki real faktlara və tarixi hadisələrə əsaslanır, digər tərəfdən isə bədii-estetik dəyərə malikdir. Müəllifin dil və üslub seçimi, hadisələrin təqdimat tərzi memuarı sadəcə xatirə deyil, həm də dərin ədəbi məna daşıyan sənət nümunəsinə çevirir.

Memuar janrının yaranması insanın özünüifadə ehtiyacından irəli gəlir. Yaddaşda qalan hadisələrin yazıya çevrilməsi bir tərəfdən şəxsi həyat yolunun mənalandırılmasına, digər tərəfdən isə tarixi proseslərin gələcək nəsillərə ötürülməsinə xidmət edir.

Memuarın tarixi kökləri çox qədim dövrlərə qədər uzanır. Antik Yunanıstanda yazılmış Ksenofontun "Anabasis" əsəri bu baxımdan xüsusi əhəmiyyət daşıyır. Müəllif burada rəhbərlik etdiyi yunan əsgərlərinin yürüşünü təsvir edir, həm hadisələrin tarixi əsaslarını, həm də şəxsi təcrübəsini ön plana çıxarır ki, bu da memuar janrının ilkin xüsusiyyətlərini əks etdirir.

Eyni xüsusiyyətləri Yuli Sezarın "Qalliya müharibəsi haqqında qeydlər" əsərində də görmək mümkündür. Sezar burada yalnız hərbi əməliyyatları təsvir etmir, eyni zamanda öz siyasi baxışlarını və rəhbərlik təcrübəsini də təqdim edir. Sadə və subyektiv təhkiyə tərzi memuar janrına xas əsas xüsusiyyətlərdən biri kimi çıxış edir.

Orta əsrlərdə memuar ənənəsinin inkişafında mühüm mərhələ Avreli Avqustinin "Etiraflar" əsəri ilə bağlıdır. Bu mətn avtobioqrafik memuarın ən erkən nümunələrindən biri sayılır. Müəllif burada şəxsi həyat yolunu, günah və peşmanlıqlarını, dini dönüş nöqtəsini oxucuya təqdim edir. Əsərdə daxili aləmin dərin təhlili və fərdi hisslərin səmimi şəkildə ifadəsi memuar janrının sonrakı inkişafına güclü təsir göstərmişdir.

Bununla belə, bu dövrə aid yazılar memuar janrının hələ tam formalaşmadığını, yalnız ilkin cəhdlər və başlanğıc mərhələlər kimi təmsil olunduğunu göstərir.

Antik və orta əsr müəlliflərinin əsərlərində memuarın əsas xüsusiyyətləri nəzərə çarpsa da, onlar hələ sistemli və müstəqil ədəbi janr səviyyəsinə çatmamışdı.

Memuarın ayrıca ədəbi ənənə kimi formalaşması XVI-XVII əsrlərə təsadüf edir. Ədəbiyyat tarixçilərinin fikrincə, xüsusilə Fransa ədəbiyyatında bu dövrdə memuar artıq təsadüfi xatirə yazılarından uzaqlaşaraq müstəqil janr statusu qazanmış, ədəbi prosesdə sabit yer tutmağa başlamışdır.

Memuar janrının Avropa ədəbiyyatında formalaşması XVI əsrdə əsasən Filipp de Kommin ilə başlanır. Onun məşhur "Xatirələr" əsəri Fransa memuar ədəbiyyatının təməlini qoyan nümunə hesab olunur. F.Kommin kral XI Lüdovikin yaxın çevrəsində olmuş və saray həyatı ilə siyasi hadisələri öz müşahidələrinə əsasən qələmə almışdır. Əsərin əsas xüsusiyyəti müəllifin hadisələrə şəxsən şahid kimi yanaşması, həmçinin dövrün siyasi intriqalarını bədii şəkildə təqdim etməsidir. Buna görə də tədqiqatçılar onun "Xatirələr"ini həm tarixi mənbə, həm də ədəbi dəyərə malik mətn kimi qiymətləndirirlər.

XVI əsrdə qoyulan bünövrə XVII əsrdə memuar janrının klassik inkişaf mərhələsinə keçməsinə zəmin yaratdı. Bu dövrdə memuar artıq yalnız şəxsi xatirələrin toplusu olmaqla kifayətlənməyib, həm də ictimai-siyasi hadisələrin dərin ədəbi təhlili üçün vasitəyə çevrildi.

Kardinal Retz bu mərhələnin əsas nümayəndələrindən biri hesab olunur. Onun "Xatirələr" əsəri müəllifin siyasi mübarizələrdə birbaşa iştirakı əsasında formalaşmışdır. Nəticədə, mətn yalnız şəxsi müşahidələrdən ibarət olmayıb, eyni zamanda diplomatik üslubda təqdim olunan siyasi təhlil xarakteri daşıyır. Bu da janrın siyasi təcrübənin və dövlət idarəçiliyinin sənədləşdirilməsi baxımından imkanlarını nümayiş etdirir.

Lui de Ruvrua da memuar janrının ən parlaq nümayəndələrindən biri kimi qəbul edilir. Onun çoxcildlik "Xatirələr" əsəri Versal sarayındakı hadisələrin təsvirinə həsr olunmuşdur. O, kral XIV Lüdovikin və saray aristokratiyasının həyatını detallı şəkildə təqdim edir, dövrün siyasi və mənəvi mənzərəsini ustalıqla yaradır. Ədəbiyyatşünasların fikrincə, bu əsər memuar janrının zirvəsini təşkil edir, çünki burada bədii ifadə vasitələrinin zənginliyi və faktların dəqiqliyi birləşərək janrın mükəmməl formasını ortaya qoyur.

Beləliklə, məhz Fransa ədəbiyyatı memuarı müstəqil bədii janr kimi ədəbiyyata gətirmiş və onun gələcək inkişafına həlledici təsir göstərmişdir.

Maarifçilik ideyalarının yüksəlişi memuar janrına yeni məzmun qazandırmışdır. Bu dövrdə fərdi azadlıq anlayışının önə çıxması, şəxsi təcrübənin dəyərinin vurğulanması və ictimai-siyasi şüurun genişlənməsi memuar yazılarının artmasına səbəb oldu. Yazıçılar, filosoflar və dövlət xadimləri əsərlərində yalnız öz şəxsi müşahidələrini deyil, həm də dövrün fəlsəfi və siyasi ideyalarını əks etdirməyə başladılar. Bununla da memuar janrı sadəcə hadisələrin təsviri vasitəsi olmaqdan çıxaraq epoxanın intellektual və ideoloji mənzərəsini təqdim edən çoxqatlı ədəbi formaya çevrilmişdir.

XIX əsrdə memuar janrının inkişafı romantizm və realizm cərəyanlarının təsiri altında davam etmişdir. Romantizm cərəyanının nümayəndələri memuar vasitəsilə öz daxili dünyalarını, fərdi hisslərini və həyat fəlsəfələrini ifadə etmək üçün istifadə edirdilər. Realist yazıçılar isə memuar janrından tarixi hadisələrin obyektiv və dəqiq bədii inikasını vermək üçün istifadə edirdilər.

Bu dövrün ən parlaq nümunələrindən biri Fransua Rene de Şatobrianın "Xatirələr" əsəridir. Müəllif burada romantik duyğularla tarixi təhlili birləşdirərək memuar janrının inkişafında yeni mərhələ yaratmışdır. Əsər həm fərdi təcrübənin bədii ifadəsi, həm də tarixi proseslərin dərin təhlili baxımından janrın imkanlarının genişləndiyini nümayiş etdirir.

XX əsrdə I və II Dünya müharibələri, siyasi inqilablar, imperiyaların süqutu və yeni dünya nizamının formalaşması kimi qlobal hadisələr memuar janrının əhəmiyyətini daha da artırmışdır. Bu dövrdə yazılan memuarlar təkcə şəxsi xatirələr toplusu kimi deyil, həm də tarixi hadisələrin birbaşa şahidlərinin qələmindən çıxan sənədli mənbələr kimi dəyərləndirilirdi. Müəlliflər yaşadıqları faciələri, siyasi qərarların pərdəarxası məqamlarını, müharibələrin insan həyatına təsirlərini və ictimai dəyişikliklərin mahiyyətini şəxsi təcrübə kontekstində oxucuya çatdırırdılar.

Bu baxımdan, Uinston Çörçillin çoxcildlik memuarları II Dünya müharibəsinin gedişatını hadisələrin mərkəzindən təqdim edir və tarixi proseslərin dərinliklərinə işıq salır. Eyni zamanda Şarl de Qollun "Xatirələr" əsəri Fransa tarixindəki dönüş nöqtələrini birbaşa iştirakçının baxış bucağından əks etdirir.

Beləliklə, XX əsrdə memuar janrı həm etibarlı tarixi sənəd, həm də bədii-ədəbi ifadə vasitəsi kimi öz mövqeyini möhkəmləndirmişdir. Janrın funksional çərçivəsi genişlənmiş, fərdi təcrübə ilə ümumbəşəri tarixi proseslər arasında daha güclü bir əlaqə qurulmuşdur.

Bu inkişaf tendensiyaları memuar janrına elmi marağın artmasına da səbəb olmuşdur. Məhz buna görə də memuar janrı ilə bağlı nəzəri araşdırmalar həm rus ədəbiyyatşünaslığında, həm də Qərb elmi mühitində geniş şəkildə aparılmışdır.

Lotman janra semiotik baxış bucağından yanaşaraq qeyd edir ki, müəllifin həyat hekayəsi yalnız şəxsi təcrübənin ifadəsi deyil, eyni zamanda "mədəni kodların daşıyıcısı"dır. Bu baxımdan, memuar mətni oxucuya təkcə müəllifin bioqrafiyasını deyil, həm də həmin dövrün mədəni mühitini, davranış modellərini və ideoloji mənzərəsini ötürür [8, s. 474].

Ceyms Olni isə memuar janrını yaddaş və narrativ münasibətləri əsasında təhlil edərək qeyd edir ki, memuar şəxsi təcrübənin sadəcə təsviri deyil, həm də onun yenidən qurulması prosesidir. Yəni müəllif yaddaşda mövcud olan materialı müəyyən struktur çərçivəsində təşkil edir və mətn strategiyaları vasitəsilə onu yenidən formalaşdırır [5, s. 3].

Sidoni Smit və Culiya Uatson memuarı "həyat hekayəsi" anlayışı çərçivəsində araşdıraraq janrın gender, mədəniyyət və siyasət kontekstlərində şərh olunma prinsiplərini təqdim edirlər. Onların fikrincə, memuar yalnız şəxsi tarix deyil, eyni zamanda kimlik siyasətinin ifadə forması kimi çıxış edir [6, s. 103].

Pol Con İkin isə memuarı kimliklə əlaqəli janr kimi dəyərləndirir. O, memuarı "özünütəsdiq və özünükəşf" [3, s. 45] mətni kimi səciyyələndirərək onun fərdi kimliyin qurulmasında mühüm rol oynadığını vurğulayır.

Beləliklə, həm rus, həm də Qərb ədəbiyyat nəzəriyyəsində memuar janrı tarixi sənəd, mədəni kod, narrativ konstruksiya və kimlik təcrübəsi kimi müxtəlif nəzəri baxış bucaqlarından izah edilmişdir. Bu çoxşaxəli yanaşmalar janrın dinamik xarakterini və elmi tədqiqatlar üçün aktual sahə olduğunu göstərir.

Memuar janrı həm tarixi faktların, həm də şəxsi təcrübələrin bədii şəkildə təqdim olunduğu çoxqatlı və mürəkkəb ədəbi formadır. Onu digər yazılı janrlar-

dan fərqləndirən özünəməxsus xüsusiyyətlər ədəbiyyatşünaslar üçün əsas nəzəri meyarlar kimi çıxış edir. Tədqiqatçılar memuar janrının aparıcı xüsusiyyətlərini aşağıdakı kimi müəyyənləşdirirlər:

Seçilmişlik – Memuar müəllifin həyat yolunun bütün mərhələlərini deyil, yalnız konkret dövrü, hadisəni və ya təcrübəni əhatə edir. Bu selektiv yanaşma müəllifin diqqətini əsas məsələlərə yönəldir və mətnin ideya-məzmun strukturunun daha aydın formalaşmasına imkan yaradır;

Subyektivlik – Janrın başlıca xüsusiyyəti hadisələrin müəllifin şəxsi yaddaşı və baxış bucağı ilə təqdim edilməsidir. Oxucu baş verənləri müəllifin fərdi hiss və düşüncə prizmasından qavrayır ki, bu da memuarın bədii-estetik dəyərini müəyyənləşdirən əsas amillərdən biridir;

Ailə və ictimai mühitin əks olunması – Memuar yalnız fərdi həyat hekayəsini deyil, həm də müəllifin yaşadığı dövrün sosial, siyasi və mədəni mənzərəsini canlandırır. Ailə, dost çevrəsi, ictimai və ya siyasi mühit hadisələrin fonunu təşkil edərək mətnin tarixi və mənəvi kontekstini formalaşdırır;

Fraqmentar quruluş – Memuar mətni çox vaxt bir-biri ilə bağlı və ya müstəqil şəkildə təqdim olunan xatirələr, hadisələr və müşahidələr toplusundan ibarət olur. Bu fraqmentar struktur müəllifin həyatının müxtəlif epizodlarını ardıcıl şəkildə yox, yaddaşın axınına uyğun şəkildə təqdim etməyə imkan verir və əsərə daha canlı, dinamik ritm qazandırır;

Emosional ton – Memuarda hadisələr yalnız fakt kimi deyil, müəllifin hiss və emosiyaları ilə birlikdə təqdim olunur. Bu xüsusiyyət oxucuya sadəcə məlumat almaqla yanaşı, müəllifin psixoloji vəziyyətini və hadisələrə şəxsi münasibətini dərk etməyə imkan verir;

Fakt və təxəyyülün vəhdəti – Yaddaşın selektiv və subyektiv təbiətindən irəli gələrək müəllif bəzən hadisələri tam olduğu kimi deyil, bədii detallarla zənginləşdirilmiş formada təqdim edir və ya onları müəyyən dərəcədə yenidən qurur. Bu yanaşma memuarın həm tarixi-sənədli dəyərini qoruyur, həm də ona estetik dərinlik və ədəbi ifadə gücü qazandırır.

Beləliklə, memuar janrı tarixi sənəd və bədii mətnin sintezini özündə birləşdirən, həm fərdi təcrübəni, həm də dövrün ictimai-siyasi reallıqlarını əks etdirən çoxşaxəli ədəbi forma kimi səciyyələnir.

XX əsrin ikinci yarısından etibarən memuar janrı postmodernizm estetikasının təsiri altında yeni məzmun və forma xüsusiyyətləri qazanmışdır. Əgər klassik memuar əsasən tarixi hadisələrin ardıcıl və dəqiq şəkildə təqdimatına yönəlirdisə, postmodern dövrdə janr fərdi təcrübənin qeyri-müəyyənliyinə, yaddaşın subyektivliyinə və müəllif perspektivinin dəyişkənliyinə əsaslanmağa başlamışdır. Artıq memuar sadəcə faktların xronoloji ardıcıllıqla toplanması deyil, müəllifin şəxsi təcrübəsini yenidən qurduğu, bədii şəkildə yenidən mənalandırdığı ifadə vasitəsinə çevrilmişdir.

Müasir memuarların xarakterik cəhətlərindən biri yumor, ironiya, absurdluq və metatekstual yanaşmalara geniş yer verilməsidir. Bu cür üslubi vasitələr yazıçının şəxsi mövqeyini vurğulamaqla yanaşı, oxucunu da faktların obyektivliyi, yaddaşın nə dərəcədə etibarlı olması və həqiqətin mətndə hansı formada əks etdirildiyi barədə düşünməyə sövq edir.

XX əsrin ikinci yarısından etibarən memuar janrı klassik ənənədən uzaqlaşaraq yaddaşın konstruktiv və subyektiv təbiətini, hekayənin çoxqatlı məna qatlarını və müəllifin özünüifadə formalarının müxtəlifliyini ön plana çıxarmağa başlayır. Bu mərhələdə memuar postmodern ədəbiyyatın digər janr və estetik prinsipləri ilə sıx şəkildə əlaqələnir, fərdi təcrübənin çoxsəsli və dəyişkən təqdimatına xidmət edir.

Ənənəvi anlamda memuar müəllifin bütün həyat yolunu deyil, onun yalnız seçilmiş bir dövrünü və ya xüsusi əhəmiyyət kəsb edən hadisələri əhatə edir. Bu xüsusiyyəti ilə o, avtobioqrafiyadan fərqlənir. Əgər avtobioqrafiyada müəllifin doğumdan ölümə qədər olan həyat hekayəsi ardıcıl və xronoloji şəkildə təqdim olunursa, memuarda daha çox şəxsi yaddaşda dərin iz buraxmış anlar, emosional təcrübələr və subyektiv müşahidələr ön plana çəkilir.

Ədəbiyyatşünas Filipp Lejyön memuarı avtobioqrafiyanın bir növü kimi xarakterizə edir, lakin onun fikrincə, avtobioqrafiyada müəllif həyatını bütöv şəkildə təqdim etdiyi halda, memuarda diqqət daha çox dövrün ictimai-siyasi mənzərəsinə yönəlir [4, s. 5]. N.D.Tamarçenko da oxşar mövqedən çıxış edərək memuarın avtobioqrafiyadan fərqləndirilməsinə dair eyni istiqamətdə mülahizələr irəli sürür.

Pol Con İkin avtobioqrafik mətnləri “özünü tanıma və özünü yaratma prosesi” [2, s. 3] kimi dəyərləndirir. Onun fikrincə, memuar müəllifi faktları sadəcə xronoloji ardıcıllıqla təqdim etmir, onları təxəyyül və narrativ strategiyalar vasitəsilə yenidən qurur. Bu yanaşma memuar janrının həm subyektiv, həm də bədii-estetik mahiyyətini daha aydın şəkildə üzə çıxarır.

Tzvetan Todorov isə qeyd edir ki, memuar janrı avtobioqrafiyanın bir forması kimi qəbul edilə bilər, lakin fərdi taleyi geniş tarixi hadisələrin fonunda təqdim etməsi ilə ondan fərqlənir. Başqa sözlə, memuar yalnız şəxsi həyatın təsviri ilə məhdudlaşmır, həm də müəllifin yaşadığı dövrün ictimai-siyasi və mədəni mənzərəsini əks etdirir.

Beləliklə, avtobioqrafiya ilə memuar arasındakı əsas fərqlər məhz onların əhatə dairəsi, məqsədi, strukturu və təqdimat tərzində özünü göstərir. Avtobioqrafiya, adətən, müəllifin doğumundan həyatının sonuna qədər bütün mərhələləri xronoloji ardıcıllıqla təqdim edən, şəxsi təcrübəni tam şəkildə sənədləşdirməyə çalışan janrdır. Burada məqsəd əsasən həyat yolunun bütöv mənzərəsini yaratmaq, fərdi hadisələri və nailiyyətləri obyektiv şəkildə qeyd etməkdir. Memuar isə bu mənada daha selektiv xarakter daşıyır. Bu janr müəllifin həyatının yalnız müəyyən dövrlərini, xüsusi əhəmiyyət kəsb edən hadisələri və ya emosional baxımdan dərin iz buraxmış təcrübələri əhatə edir.

Bundan əlavə, avtobioqrafiya faktların ardıcıllığı və obyektivliyi prinsipinə daha çox söykənir, müəllif hadisələri olduğu kimi təqdim etməyə çalışır. Memuar isə şəxsi yaddaşın və təxəyyülün süzgəcindən keçdiyi üçün daha subyektiv xarakter daşıyır, hadisələrə müəllifin hissləri, emosional reaksiyaları və şəxsi təəssüratları əlavə olunur.

Avtobioqrafiyada diqqət əsasən fərdi həyat tarixinin bütöv təsvirinə yönəldiyi halda, memuar yalnız şəxsi xatirələrlə məhdudlaşmır, həm də hadisələrin baş verdiyi dövrün sosial, siyasi və tarixi mənzərəsini canlandırır. Qeyd etmək olar ki, memuar müəllifin şəxsi təcrübəsini daha geniş ictimai və mədəni kontekstə bağla-

yan, subyektiv təəssüratla tarixi reallığı sintez edən çoxqatlı narrativ forma kimi avtobioqrafiyadan fərqlənir.

Memuar janrının dünya ədəbiyyatındakı inkişaf mərhələləri göstərir ki, bu ədəbi forma həm şəxsi həyat hekayələrinin, həm də ictimai-tarixi hadisələrin bədii ifadə vasitəsinə çevrilmişdir. Qərb ənənəsində memuar əsasən avtobioqrafik diskurs çərçivəsində formalaşsa da, İsrail ədəbiyyatında onun inkişaf istiqaməti fərqlidir. Burada müəlliflərin şəxsi təcrübəsi demək olar ki, həmişə dövlətin formalaşması, müharibələr, Holokost və siyasi mübarizələrlə sıx bağlıdır. Məhz İsrail memuar ənənəsində fərdi və kollektiv yaddaşın sintezi, tarixi travmanın şəxsi təcrübə ilə birləşməsi və milli kimliyin narrativ səviyyədə formalaşması aydın şəkildə təzahür edir.

Ədəbiyyat nəzəriyyəçiləri, xüsusilə F.Lejyön və P.C.İkin avtobioqrafik mətnlərin əsas funksiyasını yaddaşın formalaşması və fərdi kimliyin qurulması kimi izah edirlər. Lakin İsrail memuarı kontekstində bu funksiyanın sərhədləri daha genişdir: burada janr təkcə fərdi özünüifadə vasitəsi deyil, xalqın kollektiv yaddaşını formalaşdıran ədəbi struktur kimi çıxış edir.

Bu kontekstdə Amos Ozun "Məhəbbət və qaranlığın hekayəsi" əsəri xüsusi əhəmiyyət kəsb edir. Yazıçı uşaqlıq xatirələrini yalnız fərdi təcrübə kimi təqdim etmir, eyni zamanda İsrail dövlətinin ilk illərinin sosial və siyasi reallıqları ilə ustalıqla birləşdirir. Əsər həm şəxsi, həm də kollektiv yaddaşın vəhdəti üzərində qurulduğundan, müəllifin emosiyaları xalqın tarixi təcrübəsi ilə rezonans yaradır və oxucuya fərdi və ictimai perspektivi eyni anda təqdim edir.

Əsərdə valideynlərin bir-biri ilə münasibətləri və uşaqlıq hadisələri ilə bağlı anlar oxucuya həm emosional, həm də mədəni kontekst təqdim edir. Uşaqlıq xatirələri vasitəsilə müəllif fərdi kimliyin formalaşma prosesini göstərir və yaddaşın subyektiv xarakterini vurğulayır.

Amos Ozun xatirələrində mühacirət təcrübəsi, kibbutz sistemi, yeni dövlətin qurulması və dövlətçilik barədə çətinliklər əks olunur. Bu elementlər yalnız fon kimi təqdim edilmir, müəllifin şəxsi təcrübəsi ilə qarşılıqlı təsir vasitəsi ilə işlənir. Beləcə, oxucu həm fərdi, həm də tarixi proseslər vasitəsilə hadisələri qavrama imkanı əldə edir.

Əsər fərdi xatirələrin və kollektiv təcrübənin bir-birinə nüfuz etməsi ilə seçilir. Müəllifin emosional və psixoloji vəziyyəti, ailə və cəmiyyətlə əlaqələri hadisələrin dərinliyini artırır. Bu sintez memuar janrının həm klassik, həm də postmodern xüsusiyyətlərini əks etdirir.

Hadisələrin sadəcə xronoloji ardıcıllıqla deyil, emosional yaddaş prizmasında təqdim olunması A.Ozun bədii üslubunun əsas göstəricisidir. Onun subyektiv yaddaş və emosional fokusdan istifadə etməsi memuarın klassik sərhədlərini aşır və onu postmodern narrativ xüsusiyyətlərə yaxınlaşdırır. Fakt və yaddaş, şəxsi və kollektiv təcrübə, reallıq və subyektiv təsəvvürlər arasında incə bir balans formalaşır. Beləcə, "Məhəbbət və qaranlığın hekayəsi" həm fərdi yaddaşın, həm də kollektiv tarix anlayışının qarşılıqlı təsirini nümayiş etdirən, çoxqatlı və dinamik bir memuar nümunəsi kimi çıxış edir.

Eyni tendensiyanı İsrail siyasi memuarlarında da müşahidə etmək mümkündür. Məsələn, İshaq Rabinin "Rabinin Xatirələri" əsəri də bu baxımdan diqqətəlayiq nümunədir. Burada müəllif şəxsi həyatına dair xatirələrini paylaşsa da, əsas

diqqət onun dövlətçilik fəaliyyəti, müharibələr, diplomatiya və siyasi proseslər üzərində cəmlənir. Şəxsi və ictimai təcrübə arasında balans saxlanılır; müəllifin subyektiv baxışları siyasi qərarların arxa planını, diplomatik müzakirələri və müharibə strategiyalarını izah etmək məqsədilə istifadə olunur.

Əsər siyasi memuar ənənəsinin davamı kimi çıxış edir və janrın ictimai-siyasi funksiyasını ön plana çıxarır. Burada memuar yalnız müəllifin bioqrafiyası deyil, həm də İsrail dövlətinin formalaşma prosesini sənədləşdirən, milli yaddaşın və siyasi tarix anlayışının formalaşmasına xidmət edən qiymətli mənbədir. Rabinin yazdıqları oxucuya həm şəxsi, həm də siyasi perspektivi eyni anda təqdim edir, fərdi təcrübə ilə kollektiv və tarixi konteksti ustalıqla birləşdirir.

Amos Oz və İshaq Rabin nümunələrindən əlavə, İsrail ədəbiyyatında memuar janrının müxtəlif istiqamətləri də diqqətəlayiqdir. Aharon Appelfeldin "Həyat hekayəsi" əsəri Holokost travmasını şəxsi xatirələrlə birləşdirərək fərdi yaddaşı kollektiv faciə fonunda təqdim edir. Burada yaddaş yalnız fərdi təcrübə kimi yox, milli identikliyin əsas daşıyıcısı olaraq da işlənir. A.Appelfeldin yanaşması göstərir ki, şəxsi xatirələr və tarixi hadisələr bir-birinə nüfuz edərək oxucuya həm emosional, həm də tarixi perspektiv təqdim edir.

Eyni istiqamətdə S.İzharın "Başlanğıc mərhələsi" adlı əsərində uşaqlıq illərinin təsviri, ailə mühiti və İsrailin quruluşunun ilk mərhələləri memuar üslubunda təqdim olunur. İzhar fərdi xatirələri ictimai və tarixi kontekstlə birləşdirərək oxucuya dövrün mədəni və sosial şəraitini əks etdirən canlı təsvir təqdim edir.

David Qrossman "Zamandan kənarda" adlı əsərində şəxsi itki və kədər təcrübəsini ümumbəşəri travma və kollektiv ağrı ilə əlaqələndirir. Əsər memuar janrının poetik transformasiyasını nümayiş etdirir və göstərir ki, memuar yalnız faktların ardıcıllığı deyil, bununla belə, emosional və fəlsəfi təcrübənin bədii təcəssümüdür.

Bununla yanaşı, Qolda Meirin "Mənim həyatım" və Abba Ebanın "Avtobioqrafiya" əsərlərində siyasi liderlərin memuarları əsasən dövlətin qurulması, müharibələr, diplomatiya və beynəlxalq münasibətlər mövzularına fokuslanır və janrın ictimai-siyasi funksiyasını ön plana çıxarır.

Ənənəvi və siyasi memuar nümunələrindən fərqli olaraq, Etqar Keret İsrail memuar janrına müasir və bir fərqli perspektiv gətirir. O, əsərlərində fərdi və gündəlik xatirələri qısa, bəzən absurd şəkildə təqdim edir. Bu yanaşma oxucuya həm şəxsi təcrübəni, həm də müasir İsrail cəmiyyətinin sosial və mədəni mənzərəsini çatdırmağa imkan verir. E.Keretin yazıları memuarın ənənəvi sərhədlərini genişləndirir, subyektiv təəssüratla tarixi və ictimai konteksti birləşdirir, həmçinin ironiya, yumor və metaforik yanaşmalardan ustalıqla istifadə edir.

**Nəticə.** Beləliklə, İsrail ədəbiyyatında memuar janrı həm fərdi yaddaşın poetik ifadəsi, həm də kollektiv tarixi təcrübənin sənədləşdirilməsi funksiyasını qoruyaraq müxtəlif istiqamətlərdə inkişaf etmişdir. Ədəbiyyatçılar əsasən ailə, uşaqlıq və travma mövzularına fokuslanmış, siyasi liderlər isə dövlətçilik və ictimai hadisələri ön plana çıxarmışdır. Amos Oz, İshaq Rabin, Aharon Appelfeld, S.İzhar, David Qrossman, Qolda Meir və Abba Eban kimi nümunələr fərdi və kollektiv təcrübənin vəhdətini nümayiş etdirərək memuar janrının həm şəxsi, həm də ictimai funksiyasını aydın şəkildə ortaya qoyur. Keret isə janra postmodern nəfəs gətirərək fərdi və ictimai perspektivi daha dinamik və poetik şəkildə birləşdirir, müasir İsrail memuarının zənginliyini və çoxqatlılığını tamamlayır.

**Ədəbiyyat:**
1. Abrams, A. Glossary of Literary Terms. Wadsworth Cengage Learning, 2009. 393 p.
2. Eakin, P. J. Fictions in Autobiography. Princeton University Press, 1985. 300 p.
3. Eakin, P. J. Living Autobiographically: How We Create Identity in Narrative. Cornell University Press, 2008. 204 p.
4. Lejeune, Ph. On Autobiography. University of Minnesota Press, 1989. 320 p.
5. Olney, J. Memory and Narrative: The Weave of Life-Writing. Chicago: University of Chicago Press, 1998. 430 p.
6. Smith, S., Watson, J. Reading Autobiography: A Guide for Interpreting Life Narratives. Minneapolis: University of Minnesota Press, 2010. 392 p.
7. Todorov, T. Genres in Discourse. Cambridge University Press, 1990. 136 p.
8. Лотман, Ю. М. О себе и о других: Заметки о структуре автобиографического повествования, Т. 1. Таллин: Александра, 1992. 479 с.

**Leyla Aliyeva**

**Summary**

**THE ARTISTIC PRINCIPLES OF THE MEMOIR GENRE AND THEIR MANIFESTATION IN ISRAELI LITERATURE**

The article examines the memoir genre as a literary form that blends personal experience with historical and socio-political contexts. It traces the genre’s development from antiquity to modern times, emphasizing its dual nature as both a historical document and an artistic work. Special focus is given to Israeli literature, where memoirs reflect individual experience alongside collective memory and national history. Works by Amos Oz, Yitzhak Rabin, Aharon Appelfeld, S. Izhar, David Grossman, Golda Meir, Abba Eban, and Etgar Keret illustrate diverse approaches, from personal and political memoirs to postmodern reinterpretations. The study highlights the memoir’s role in shaping memory, identity, and historical understanding.

**Лейла Алиева**

**Резюме**

**ХУДОЖЕСТВЕННЫЕ ПРИНЦИПЫ ЖАНРА МЕМУАРОВ И ИХ ПРОЯВЛЕНИЕ В ИЗРАИЛЬСКОЙ ЛИТЕРАТУРЕ**

Статья рассматривает жанр мемуаров как литературную форму, объединяющую личный опыт с историческим и социополитическим контекстом. Отмечается двойственная природа жанра как исторического документа и художественного произведения. Особое внимание уделено израильской литературе, где мемуары отражают не только индивидуальный опыт, но и коллективную память и национальную историю. Произведения Амоса Оза, Ицхака Рабина, Ахарона Аппельфельда, С. Изхара, Дэвида Гроссмана, Голды Меир, Аббы Эбана и Этгара Керета демонстрируют разнообразные подходы к жанру – от личных и политических мемуаров до постмодернистских интерпретаций. Работа подчеркивает роль мемуаров в формировании памяти, идентичности и исторического понимания.

*Rəyçi: dos. G.Hüseynli*